BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# TARİX

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİNDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI TARİXİNDƏN

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***veliyevtofiq@yahoo.com***

*Məqalədə Şərqi Slavyan ölkələrində kənd təsərrüfatının əsas sahələri – əkinçilik və maldarlıqdan, texniki bitkilər istehsalından, ümumi məhsul istehsalında dənli bitkilərin xüsusi çəkisindən, kənd təsərrüfatına kapitalizmin nüfuz etməsi və b. məsələlərdən bəhs olunur.*

Şərqi Slavyan ölkələri iqtisadi inkişafa görə inkişaf etmiş Avropa ölkələrindən hələ də geri qalırdı. Bu ölkələrdən xeyli gec kapitalist inkişaf yoluna qədəm qoymuş Rusiyanın iqtisadiyyatında XIX əsrlə XX əsrin ayrıcında görünməmiş canlanma baş vermişdi. Lakin bu inkişaf fasiləsiz və dayanıqlı ola bilməzdi. Ona görə də, XIX əsrin sonunda bir sıra kapitalist ölkəsini bürümüş iqtisadi böhran Şərqi Slavyan ölkələrini də haqladı. Amma bu ölkələrin özlərinin daxili şəraiti ilə bilavasitə bağlı olan amillər üzündən iqtisadi böhran Avropa ölkələrindəkindən nəticə etibarilə daha dağıdıcı olmuşdu.

Hər bir inkişaf etmiş kapitalist ölkəsindəki kimi, Şərqi Slavyan ölkələrinin iqtisadiyyatı da tsiklik inkişafa mübtəla olmuşdu. Bu inkişaf üçün ən xarakterik cəhət canlanma, yüksəliş, böhran və durğunluqdur. Ona görə də, Rusiyadakı iqtisadi yüksəlişdən (1893-1900) sonra iqtisadiyyatı bürüyən böhran, kənd təsərrüfatına da təsir göstərmişdi. İqtisadi böhranın daha ağır olması və uzun sürməsi özünü bütün istehsal sahələrində büruzə verirdi. Şərqi Slavyan ölkələrində kənd təsərrüfatının vəziyyəti sənaye sahələri ilə müqayisədə o qədər də ağır deyildi. Belə bir şəraitdə 1901-ci ilin məhsulsuzluğu da təsərrüfat həyatına təsirsiz ötməmişdi. Amma kənd təsərrüfatı məhsulları alıcılarının əsasən ölkə daxilində olmaları 1900-1903-cü illərdə belə məhsuldarlığın bir qədər artması hesabına daxili bazarın alıcılıq qabiliyyəti nisbətən yüksəlmişdi. Bunu məqalənin sonrakı hissəsində verilən statistik materiallardan da görmək mümkündür. Lakin mühüm bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır. Dünya iqtisadi böhranı başa çatdıqdan sonra Rusiyada istehsalın canlanması əvəzinə durğunluq dövrü başladı və bu, xeyli davam etdi. Heç şübhəsiz, belə bir vəziyyət istər-istəməz kənd təsərrüfatına da bu və ya digər şəkildə təsir göstərirdi (10, 298). Rusiya kapitalizmi burjua demokratik inqilabının əsas məzmununu təşkil edən sosial dəyişiklikləri başa çatdıra bilmədi. Ona görə də, çar mütləqiyyəti və mülkədar torpaq sahibliyi yanaşı mövcud idi. Bu da, inkişafa mane olan amillərdən idi.

Yuxarıda göstərildiyi kimi, 1900-1903-cü illərin dünya iqtisadi böhranı Şərqi Slavyan ölkələrinin kənd təsərrüfatından da yan keçməmişdi. Buna baxmayaraq kənd

təsərrüfatında kapitalizmin inkişafı həlledici amilə çevrilmişdi. Bu dövrdə kəndin təsərrüfat həyatına təsir göstərən amillər özünü daha qabarıq şəkildə göstərirdi.

Rusiyada kəndin təsərrüfat həyatına təsir edən çoxlu amillər vardı. Yuxarıda onların bəzilərindən danışıldı. 1905-1907-ci illərdə mülkədar torpaq sahibliyi üzərinə kəndlilərin hücuma keçmələri bu sıradandır. Dövlətin torpaq münasibətlərinə müdaxiləsi də güclənmişdi. Belə bir şəraitdə həm daxili və həm də xarici bazarlarda kənd təsərrüfatı məhsulları qiymətlərinin artması obyektiv olaraq kənd təsərrüfatının inkişafına təkan verirdi.

1905-1914-cü illərdə mülkədarlara məxsus torpaqların 10 mln. desyatinə qədəri Kəndli torpaq bankı vasitəsilə satılmışdı. Bu torpaqlar müqabilində onlar 1 milyard manat qiymətli kağız və üstəlik kəndlilərdən 250 mln. manat nağd pul almışdılar. Mülkədar torpaqlarının torpaq banklarına girov qoyma əməliyyatı genişlənmişdi. 1906-1914-cü illərdə təkcə Zadəgan torpaq bankına təxminən 9 milyon desyatin mülkədar torpağı girov qoyulmuşdu. Birinci dünya müharibəsi ərəfəsində 46,6 milyon desyatin mülkədar torpağı, yəni onlara məxsus olan bütün torpaqların yarıdan çoxu müxtəlif bankların girovunda idi. 1915-ci ilədək Zadəgan və digər xüsusi banklara girov qoyulmuş torpaqların əvəzində mülkədarlar 700 milyon manat borc pul almışdılar (6, 296; 5, 90).

Mülkədarlar, əvvəllərdə olduğu kimi, torpaqların müəyyən hissəsini müxtəlif formada icarəyə verirdilər. 1905-1907-ci illərin rus inqilabı dövründə icarə haqqı bir qədər ucuzlaşsa da, sonrakı illərdə yenə bahalaşmışdı. 1907-1913-cü illərdə mülkədarların aldıqları torpaq rentasının pul ilə hesablanması 2 milyard manata bərabər idi. Onların girov qoyduqları torpaqların satışından və torpaq icarəsindən əldə edilən gəlir 3,3 milyard manatı aşmışdı (5, 150). Bu qədər böyük məbləğin müəyyən hissəsi mülkədarların eyş-işrətinə xərclənirdi. Bir hissəsi sahibkarlıqla məşğul olan mülkədarların müəssisələrinin təsisinə və kənd təsərrüfatının inkişafına məsarif edilirdi. Onların az bir qismi isə bu əməliyyatlar hesabına rantyelerə çevrilmişdi. İri mülkədar təsərrüfatlarının bir çoxunda maşın və avadanlıq alınmasına yüz minlərlə manat xərclənirdi. Kapitalist əsaslarda təşkil edilmiş mülkədar təsərrüfatları bütün göstəricilər üzrə kəndli təsərrüfatlarından qabaqda gedirdilər. Lakin mülkədar təsərrüfatlarının heç də hamısında vəziyyət belə deyildi. Akademik V.C.Nemçinovun hesablamalarına görə Birinci dünya müharibəsi ərəfəsində – 1913-cü ildə Rusiyada istehsal edilmiş 5,6 milyard pud taxılın 600 milyon pudu, yəni 12 %-i mülkədar torpaqlarından əldə edilmişdi. İstifadə edilən ucsuz-bucaqsız mülkədar təsərrüfatlarından alınan kapitalist gəlirinin xüsusi çəkisi aşağı idi. Amma mülkədar təsərrüfatlarından yığılan əmtəəlik taxıl üstünlük təşkil edirdi. Satışa çıxarılan taxılın 47 %-ni belə təsərrüfatlar verirdilər. Kənd təsərrüfatı məhsullarının emalında da onların rolu böyük idi. İri latifundiyalar əkinçilikdə kapitalın mərkəzləşdiyi sahələrdən biri olmalarına baxmayaraq, onlar həm də kəndlilərin təhkimçilik üsulu ilə istismarının əsas ocaqları olaraq qalırdılar (6, 297; 300-301).

Şərqi Slavyan ölkələri kəndlilərinin vəziyyəti əvvəlki illərlə müqayisədə o qədər də dəyişməmişdi. Onlara məxsus torpaq fondunda bəzi dəyişikliklər baş vermişdi. 1905-ci ilin torpaq sayımına görə bu ölkələrdə dövlət, xanədan kəndlilərinə, həmçinin kilisələrə 155 milyon desyatin torpaq sahələri məxsus idi. Bu torpaqlardan 138 milyon desyatinindən dövlət kəndliləri istifadə edirdilər. XIX əsrin 70-80-ci illərinə nisbətən dövlət kəndlilərinin ixtiyarında olan ümumi torpaq sahəsi 12 milyon

desyatin azalmışdı. 1905-ci ildə Rusiya imperiyasında yaşayan əhalinin 90,5 milyon nəfəri kəndlərdə yaşayırdı. Kənd əhalisinin 73,5 milyon nəfəri vilavasitə kənd təsərrüfatı ilə məşğul olurdu. Ölkədəki 15 milyona qədər kəndli təsərrüfatının (ailənin) istifadəsində 138,8 milyon desyatin pay torpağı vardı. Amma kəndli həyətlərinin bir hissəsi torpağa malik deyildi. Məsələn, yuxarıda göstərilən 15 milyon həyətin – ailənin yalnız 12,5 milyonunun torpağı vardı. Qalan 2,5 milyon ailənin (11 milyon nəfərin) torpağı yox idi. Başqa sözlə desək, kəndlilərin az qala üçdə birinin torpaq sahəsi olmamışdı. Pribaltika və Cənub regionlarında torpaqsızların sayı daha çox olmuşdu. Torpaqların heç də hamısı xüsusi mülkiyyətə çevrilməmişdi. Bəhs edilən dövrdə 38,4 milyon desyatin pay torpağı keçmiş sahibkar kəndlilərinin, 66,3 milyon desyatin dövlət kəndlilərinin və 4,2 milyon desyatini xanədan kəndlilərinin xüsusi mülkiyyətinə keçmişdi (11, 395-395; 5, 102-103).

1905-ci ildə pay torpaqları müqabilində sahibkarlara çatacaq ödənclərin (təxminən 90 milyon manat) hökumət tərəfindən ləğv edilməsi kəndli təsərrüfatlarının vəziyyətinin yaxşılaşmasına kömək etdi. Haqqında danışılan dövrdə (1901-1913-cü illər) taxılın bazar qiymətləri də xeyli artmışdı. Məsələn, buğdanın pudu 86 qəpikdən 1 manat 24 qəpiyə, çovdarınkı 55 qəpikdən 90 qəpiyə satılırdı. Maldarlıq məhsulları da bahalaşmışdı. Ətin pudu 4,7 manatdan 7,3 manata qalxmışdı (6, 303).

Kəndli təsərrüfatlarının inkişafında borc-əmanət şirkətləri böyük rol oynayırdılar. 1914-cü ildə 8 milyon nəfərdən çox üzvü olan 12200-ə qədər belə şirkət fəaliyyət göstərirdi. Kənd təsərrüfatının inkişafında ölkə daxilində istehsal edilən və xarici ölkələrdən idxal olunan kənd təsərrüfatı maşınları və alətləri həlledici rola malik idilər. Bu isə öz növbəsində kapitalist tipli təsərrüfatların artmasına təkan verirdi. Əgər 1906-cı ildə maşın və avadanlıqların ümumi dəyəri – qiyməti 40 milyon manat idisə, 1913-cü ildə bu rəqəm 109 milyon manatı keçmiş, yəni 2,8 dəfə artmışdı. Mövcud kənd təsərrüfatı parklarındakı maşın və alətlərin ümumi dəyəri müvafiq illərdə, 163 milyon manatdan 408 milyon manata çatmış, yəni 2,5 dəfə artmışdı (6. s.299; 9. s.453).

Birinci dünya müharibəsi ərəfəsində, daha doğrusu 1913-cu ildə kənd təsərrüfatında xeyli traktordan istifadə edilirdi (təxminən 156 traktor vardı). Yeri gəlmişkən, demək istərdik ki, o dövrdə (1913-cü ildə) Azərbaycanda əkinçilikdə 6 traktor işlədilirdi. Onlardan ikisi Ağdamda fəaliyyət göstərən «Qafqaz pambığı» səhmdar cəmiyyətinin tarlalarında, biri Fərrux bəy Vəzirovun «Hindarx» mülkündə, biri Hüseyn bəyin Yevlaxdakı mülkündə, beşincisi rus mülkədarı Karamzinin «Qaraçanax» mülkündə və sonuncu – altıncı traktor isə Benkendorfun Quba qəzasındakı mülklərində işlədilirdi (4, 87).

Bir sıra mülkədar və qolçomaq – tavanalı kəndlilərin təsərrüfatlarında aqrotexniki qaydalar gözlənilir, əkinçilikdə peyinlə yanaşı süni gübrələr də işlənirdi. 1908-1913-cü illərdə belə təsərrüfatlarda istifadə olunan superfosfatın miqdarı 8 milyon puddan 20 milyon puda qalxmış, yəni 2,5 dəfə artmışdı. Bütövlükdə əkinə 42 mln. pud gübrə verilmişdi. Haqqında bəhs edilən dövrdə Şərqi Slavyan ölkələrində kənd təsərrüfatı üçün yarayan 469 milyon desyatindən çox torpağın yalnız 135 milyon desyatinində məhsul becərilirdi. 1914-cü ildə Sibir və Uzaq Şərqdə təsərrüfat üçün yararlı olan 130 milyon desyatin torpağın az bir hissəsində, yəni 8 milyon desyatinində əkinçiliklə məşğul olunurdu. 1901-1913-cü illər ərzində Avropa Rusiyasında əkin sahələri 81,4 milyon desyatindən 93,8 milyon desyatinə çatmışdı. Göründüyü

kimi, artım çox da böyük deyildi, yəni 15 % təşkil edirdi. Əkinçiliklə məşğul olunan bir sıra quberniyada demək olar ki, artım müşahidə edilmirdi (9, 463).

Əkinçiliyin yayıldığı quberniyalarda yaxşı təşkil edilmiş təsərrüfatlarda, xüsusən varlı kəndlilərinkində, məhsuldarlıq xeyli yüksək idi. İstehsal edilən kənd təsərrüfatı məhsullarının tərkibi – strukturu da dəyişmişdi. Taxıl məhsulları içərisində ixraca gedən buğda və arpa yenə də əsas yer tuturdu. Bunlardan sonra çovdar və s. gəlirdi. Becərilən bütün taxıl məhsullarının 88 %-i kəndlilərin və 12 %-i mülkədarların payına düşürdü. Bazarlara satışa çıxarılan taxılın 50 %-i yenə kəndli təsərrüfatları verirdilər. Kəndlilərin tavanalı zümrəsinin təsərrüfatları bütün kəndli həyətlərinin altıda birini, (təxminən 16-17 %-i qədər) təşkil etdiyi halda, istehsal olunan taxılın 38 %-i onların, 50 %-i isə ortabab və yoxsul kəndlilərin payına düşürdü. Amma satışa gedən taxılın 34 %-i tavanalı kəndlilərin, yalnız 14 %-i ortabab və yoxsulların təsərrüfatlarında becərilirdi (3, 296).

1913-cü ildə Rusiya üzrə əldə edilmiş 5,6 milyard pud taxılın 2,2 milyard pudunu tavanalı – qolçomaq, 600 milyon pudunu mülkədar və qalanını, yəni 2,8 milyard pudunu isə kəndli təsərrüfatları vermişdilər. Taxıl istehsalının zonalara əsasən bölgüsü, eləcə də xüsusi çəkisi heç də eyni deyildi. Məsələn, 1913-cü ildə Avropa Rusiyasında 3,2 milyard pud taxıl istehsal edilmişdi. Şimali Qafqaz düzənliklərində 482 milyon pud, Sibir və Uzaq Şərqdə isə 326 milyon pud, qalan ərazilərdə isə təxminən 1 milyard pud taxıl əldə olunmuşdu. Cənubi Qafqazda yığılan taxılın yarıdan çoxunu, daha doğrusu 60 milyon pudunu Azərbaycan vermişdi (6, 301).

Texniki bitkilərin həm əkin sahələri və həm də məhsuldarlığı xeyli artmışdı. Avropa Rusiyasında orta illik kartof istehsalı 1906-cı ildə olan 890 min puddan 1913-cü ildə 1,2 milyon puda yüksəlmiş, yəni 34 faiz çox olmuşdu. İmperiyanın başqa ərazilərində becərilmiş kartof da nəzərə alınarsa, onda ümumi miqdar 2 milyon puddan çox olar. Şəkər çuğunduru əkilən sahələr sürətlə artırdı. 1895-ci ildə 318 min desyatin sahədə şəkər çuğunduru əkilirdisə, bu, 1907-ci ildə 560 min desyatinə və 1911-ci ildə 712 min desyatinə çatmışdı. 1913-cü ildə əkin sahələrindən 606 milyon pud şəkər çuğunduru götürülmüşdü. Şəkər qamışı başlıca olaraq Qaratorpaq zonada və əsasən Ukraynada becərilirdi. 1913-cü ildə 670 min desyatin sahədə şəkər qamışı əkilmiş və 754 milyon pud məhsul yığılmışdı.

Kətan əkilməsinə xüsusi diqqət yetirilirdi. Ona görə də, əkin sahələri XIX əsrin sonuna nisbətən müəyyən qədər genişlənmişdi. 1913-cü ildə 1,2 milyon desyatin sahədə kətan əkilmiş və 30 milyon puddan çox kətan əldə olunmuşdu. Əvvəllər kətan əkilməyən regionlarda, ələlxüsus Qərbi Sibirdə kətan becərilməsinə başlanılmışdı.

Şərqi Slavyan ölkələrində tütün istehsalının tarixi o qədər də qədim deyildi. Buna baxmayaraq, digər texniki bitkilər kimi, tütün becərilməsində də canlanma gözə çarpırdı. Birinci dünya müharibəsi ərəfəsində 280 min desyatin əkin sahəsindən 7 milyon pudadək tütün yarpağı yığılmışdı. Çətənə əkini sahələri də genişlənərək 1913-cü ildə 584 min desyatinə çatmış və bu sahələrdən 19 milyon pud çətənə əldə edilmişdi. Bəhs edilən dövrdə daha bir yeni texniki bitkinin – günəbaxanın becərilməsinə başlanılmışdı. 1913-cü ildə 555 min desyatin əkin sahəsindən 27 milyon puddan çox günəbaxan tumu götürülmüşdü.

Bəhs edilən ölkələrdə, əsasən Rusiyada çəltikçilik də, demək olar ki, yeni sahə idi və imperiyanın cənub, həmçinin cənub-şərq regionlarında çəltik əkilirdi. 1913-cü ildə istehsal edilmiş 16 milyon pud çəltiyin 14,5 milyon pudu Mərkəzi Asiyanın,

1,4 milyon pudu Cənubi Qafqazın və yalnız 35 min pudu Şimali Qafqazın payına düşürdü (11, 410; 5, 234).

Rusiyanın toxuculuq sənayesinə lazım olan xammal şərq ölkələrindən, başlıca olaraq Misirdən gətirilirdi. Bəhs edilən dövrdə xarici ölkələrdən pambıq idxalı xeyli azalmışdı. Ona görə çar hökuməti əsas diqqəti imperiya daxilində pambıq becərilməsinə yönəltmişdi. İmperiya toxuculuq sənayesinin xammal bazası Mərkəzi Asiya və Cənubi Qafqaz hesab olunurdu. 1907-ci ildə Mərkəzi Asiyada 775 min desyatin və Azərbaycanda 105 min desyatin sahədə pambıq əkilmişdi. Həmin ildə hər iki regionda 18 milyon pud mahlıc (çiyidi çıxarılmış pambıq) istehsal edilmişdisə, 1913-cü ildə bu, 29 milyon puda bərabər olmuşdu. Mahlıcın 2,5 milyon pudunu Azərbaycan vermişdi (5, 235; 6, 301).

Şərqi Slavyan ölkələrində kənd təsərrüfatı tədricən dünya ticarət dövriyyəsinə daxil olurdu. Bu ölkələrin bazarlarında satdıqları məhsulların miqdarı mütəmadi olaraq artmaqda idi. Əgər 1901-1905-ci illərdə dünya bazarlarında 701 milyon manatlıq məhsul satılmışdırsa, 1911-1913-cü illərdə bu məbləğ 1126 mln. manata çatmışdı. Əvvəllərdə olduğu kimi, bu məbləğin təxminən yarısı (596 mln. man.) taxıl məhsullarının satışı hesabına əldə olunmuşdu.

Maldarlıq məhsulları da ixracatda əsas yerlərdən birini tuturdu. Südçülük və əmtəə maldarlığı əsasən Pribaltikada, Ukraynada və böyük şəhərlərin ətrafında geniş yayılmışdı. Mal-qaranın cinsi yaxşılaşdırılırdı. Qərbi Sibir kərə yağ istehsalı sahəsində bir növ ixtisaslaşmışdı. Lakin maldarlıqdakı xroniki gerilik qalırdı. Müxtəlif xəstəliklərin yayılması vaxtaşırı kütləvi ziyan vururdu. Hər 100 nəfərə düşən mal-qaranın sayı xeyli azalmışdı. Əgər 1896-1898-ci illərdə hər 100 nəfərə 67 baş mal-qara düşürdüsə, 1911-1913-cü illərdə bu, 55 başa enmişdi. Müharibə ərəfəsində Şərqi Slavyan ölkələrində hər 1000 nəfərə 293 iribuynuzlu mal-qara düşürdüsə, bu göstərici Amerikada 622 və Danimarkada 888 baş olmuşdu (5, 254-255; 249-250; 6, 302).

1906-cı ildə Avropa Rusiyasında atların sayı 21 mln. başdan 1913-cü ildə 23 milyona, iribuynuzlu mal-qara 31 milyondan 32 milyona, davarlar 41 milyondan 42 milyona, donuzların sayı 11,5 milyondan 13,5 milyona çatmışdı.

Sibir və Uzaq Şərqdə 1913-cü ildə 8,4 mln. baş at, 12,5 mln. baş iribuynuzlu mal-qara, 19 mln. baş davar, 3,7 mln. baş donuz, bütövlükdə 44,2 mln. baş mal vardı. Qafqazda isə göstərilən ildə 2 mln. baş at, 5,7 mln. baş iribuynuzlu mal-qara, 1,7 mln. donuz, 9,7 mln. baş davar saxlanılırdı (5, 249-250).

Dənli bitkilər haqqında yekun olaraq demək lazımdır ki, 1900-1913-cü illər ərzində istehsal edilmiş məhsulun gəliri 1843 mln. manatdan 3426 mln. manata (artım 86 % idi), maldarlıqda isə 832 mln. manatdan 1730 mln. manata (artım 108 % olmuşdu) qalxmışdı. Bunun beşdə dördündən çoxu kəndli təsərrüfatlarının payına düşürdü. Adambaşına düşən məhsulun qiyməti 30 manatdan 43 manata çatmışdı (6, 302).

Şərqi Slavyan ölkələrinin kənd təsərrüfatında iri kapital həlledici rola malik idi. Məhsul istehsalının əsas sahələri əsasən iri kapitalın əlində cəmləşmişdi. XIX əsrin sonuna nisbətən kapitalizm daha sürətlə inkişaf edirdi. Hər desyatin torpağın məhsuldarlığına görə Şərqi Slavyan ölkələri qabaqcıl Avropa ölkələrindən hələ də geri qalırdı. Əgər bu ölkələrdə desyatinin məhsuldarlığı orta hesabla 55 pud idisə, bu, Belçikada 168 pud, Almaniyada 157 pud və Avstriyada 90 puda bərabər idi. Eyni nisbəti maldarlıqda da görmək mümkündür (6, 303; 5, 217).

Kənd təsərrüfatında muzdlu əməyin tətbiqi xeyli genişlənmişdi. Görkəmli rus

tədqiqatçısı A.Raşinin hesablamasına görə, 1913-cü ildə kənd təsərrüfatında 4,7 mln. nəfər daimi muzdlu fəhlə işləyirdi. Bu, XIX əsrin sonundakı rəqəmdən (3,7 mln.) 1 mln. nəfər çox idi. Bundan başqa kənd təsərrüfatının müxtəlif sahələrində 12 mln. nəfərə qədər mövsümi fəhlə çalışırdı (8, 343).

İqtisadi yüksəliş illərində (1909-1914) şəhərlərə qəsbkar axını güclənmişdi. Bundan başqa Uraldan Şərqə köçənlərin sayı da çoxalmışdı. Yalnız 1905-1914-cü illərdə Sibirə 3 mln. nəfər kəndli köçmüşdü. Buna baxmayaraq, Avropa Rusiyasında aqrar əhali artıqlığı heç də azalmamışdı. XIX əsrin sonuna yaxın belə əhalinin sayı 23 mln. nəfər idisə, natamam məlumata görə, 1913-cü ildə 30 mln. nəfər təşkil edirdi. Ölkədə təhkimçilik qalıqları hələ də öz gücünü saxlayırdı. Ona görə də, kəndlilərin bir hissəsi mülkədarlara kölə kimi işləməyə məcbur idi. Rusiya imperiyası ərazi konqlomeratından təşkil olunmuşdu. Burada ən yüksək inkişaf səviyyəsinə çatmış kapitalizmlə bərabər köçəri və yarımköçəri həyata belə rast gəlinirdi. İki ictimai müharibə forması, necə deyərlər, qarışıb-qovuşmuşdu. Həm mülkədar, həm də qolçomaq ağalığına qarşı kəndlilər fəal mübarizəyə başlamışdılar (8, 304; 6, 387, 304).

Şərqi Slavyan ölkələrində aqrar münasibətlərə kapitalist – burjua münasibətləri kimi qiymət vermək olar. İslahatdan sonrakı bütün dövrlərdəki inkişaf sübut edir ki, həm mülkədar, həm də kəndli təsərrüfatları feodalizmin çoxsaylı qalıqları ilə əhatə olunmasına rəğmən kapitalizm yolu ilə inkişaf edirdi. 1906-çı ilin iyulunda baş nazir Qoremikinin yerinə hökumət başçısı təyin edilmiş Stolıpin rus kəndində gerilik buxovunu dağıtmaq məqsədilə 1906-cı il noyabrın 9-da çarın verdiyi fərmanın icrasına başladı. Fərmana əsasən kənd icması torpağından istifadə edən hər bir kəndliyə istifadəsində olan icma torpağını xüsusi mülkiyyət kimi satın almaq hüququ verilirdi. İyirmi dörd il ərzində torpaqların vaxtaşırı bölünmədiyi kənd icmalarında kəndlilər bu illərdə istifadə etdikləri torpaq sahələrinin mülkiyyətçisi ola bilərdilər. Çar fərmanı ilə mülkiyyətçi kəndlilərə köhnə yerlərində yaşamaqda davam etmək, yaxud onlara xüsusi mülkiyyət kimi ayrılmış torpaq sahələrinə köçmək hüququ verilirdi. Onlar birinci halda otrub, ikinci halda isə xutor sahibləri adlanırdılar. Bu qanun Stolıpin aqrar-torpaq siyasətinin təməlini təşkil edirdi (5, 188; 6, 385).

Çar 1910-cu il iyunun 14-də Duma və Dövlət Şurasının qəbul etdiyi «Kəndli torpaq sahibliyinə dair» qanun layihəsini imzaladı. Yeni aqrar qanun 1906-cı il 9 noyabr fərmanının prinsiplərini bərqərar edir və icma torpaq sahibliyinin ləğv edilməsi üçün daha böyük imkanlar yaradırdı. Qanuna görə məcburi qaydada bütün icmaçı kəndlilər, əgər onların yaşadıqları icmalarda ödəncə keçildiyi vaxtdan icma torpaqları vaxtaşırı yenidən bölünməyibsə, xüsusi mülkiyyətçilər vəziyyətinə çevirilirdilər. Ona görə də 1906-1916-cı illər ərzində hökumət təxminən 15 milyon kəndli həyətindən yalnız 2,3 milyon həyəti, yəni bütün həyətlərin (ailələrin) təqribən 14,5 %-ni icma sahibliyindən xüsusi mülkiyyətə çevirə bilmişdi (1, 284; 6, 376).

Stolıpinin aqrar-torpaq siyasəti gözlənilən nəticələri vermədi. Qolçomaqların sayca artması və mülkədar təsərrüfatlarında kapitalist münasibətlərinin güclənməsi, milli bazarın genişlənməsi, eləcə də kənd təsərrüfatının inkişafı bütövlükdə bu ölkələrin inkişafına əngəl olan başlıca ziddiyyəti – mülkədar torpaq sahibliyini və s. aradan qaldıra bilmədi (6, 350-351).

Akademik S.Strumilinin hesablamasına görə, XX əsrin əvvəllərində, daha doğrusu, 1913-cü ildə Rusiyanın Xalq təsərrüfatından gələn ümumi gəlir 32,3 milyard manat təşkil edirdi. Bunun 10,2 milyard manatı yalnız əkinçilik və maldarlıq məh-

sullarının payına düşürdü. Elə bu böyük rəqəm kənd təsərrüfatı sahələri inkişafının başlıca göstəricisi hesab olunmalıdır (10, 299).

1914-cü ilin avqustunda başlamış Birinci Dünya müharibəsi kənd təsərrüfatında dərin iz buraxmışdı. Dünya satış bazarı ilə əlaqə pozulmuşdu. Kənd təsərrüfatı maşınlarının idxalı demək olar ki, dayandırılmışdı. Hərbi səfərbərlik ortabab və yoxsul kəndli təsərrüfatlarına ciddi zərbə vurmuşdu. Mülkədarlar işçi qüvvəsi çatışmadığına görə qadın əməyindən daha çox istifadə etməyə başlamışdılar. 1916-cı ildə 600 min hərbi əsirin əməyinin istismarı belə vəziyyətin yaxşılaşmasına kömək etmirdi. Cəbhə üçün təxminən 3 milyon baş atın müsadirəsi onsuz da ağır olan vəziyyəti daha da pisləşdirmişdi. Müharibənin ilk iki ili ərzində əkin sahələri 12 %, otlaq sahələri isə 11 % azalmışdı. Ərzaq məhsulları becərilən əkin sahələri Cənub regionunda və Qafqazda daha çox ixtisar edilmişdi. Əgər 1914-cü ildə ümumi əkin sahələri 86 milyon desyatin idisə, 1916-cı ildə bu rəqəm 76 milyon desyatinə düşmüşdü. 1914-1916-cı illərdə ərzaq və yem üçün işlənən taxılın miqdarı 13,5 milyard pud olmuşdu. Bu, özlüyündə yalnız orduya və şəhərlərə bəs edərdi. Göstərilən illərdə istehsal edilmiş taxılın 1,4 milyard pudunu dövlət satın almışdı (9, 452, 460, 466; 6, 585).

Taxıl istehsalı getdikcə azalırdı. Ölkədə becərilən taxılın çox hissəsi qolçomaqların, mülkədarların və xüsusi sahibkarların əllərində cəmlənmişdi. Möhtəkirlik görünməmiş miqyas almışdı. Məhsul istehsalının azalması və onun tədarükü baş vermiş ərzaq böhranının əsas səbəbləri deyildi. Böhranı doğuran başlıca amil tədarükün yarıtmaz şəkildə təşkili idi. Hökumət məqsədyönlü siyasət həyata keçirərdisə, onda ölkəni mövcud ehtiyatla da yaxşı təmin etmək mümkün olardı.

Şəkər qamışı əkin sahələrinin xeyli ixtisarı qənd istehsalına mənfi təsir göstərmişdi. Qənd istehsalı 126 milyon puddan 82 milyon puda düşmüşdü. Ölkədəki ət ehtiyatının 27 %-i il yarım ərzində orduya sərf edilmişdi. 1916-1917-ci illərdə ordunun ətə olan orta illik tələbi 54 milyon puda bərabər idi. Bunun yalnız 50 %-ə qədəri ödənilirdi. Avropa Rusiyasında mal-qaranın sayı 7 milyon baş azalmışdı. Ordunun və əhalinin ətlə təchizatının dövlət inhisarında olmasına baxmayaraq, daxili bazarlarda ət satışı 4-5 dəfə azalmışdı. Hökumət ölkə üzrə ətə sabit dövlət qiyməti qoymuşdu. Ayrı-ayrı quberniyalar dövlətə ət planı verirdilər. Məsələn, Poltava quberniyası 49 milyon pud, Ufa – 49 milyon, Tavriçeski – 90 milyon və Don əyaləti 57 milyon pud ət verməli idilər. Bütün bunlara baxmayaraq, 1916-cı ilin sonu 1917-ci ilin əvvəllərində orduya lazım olan ərzaq normasının yalnız 50 %-ə qədəri ödənilmişdi. Ot-ələf qıtlığı üzündən atlar kütləvi şəkildə tələf olurdu. Şəhərlərin kənd təsərrüfatı məhsulları ilə təchizatı daha da pisləşmişdi. Aclıq dalğası ölkəni bürüməkdə idi. Çar hökuməti ərzaq məsələsini tənzim etmək iqtidarında deyildi. Xalq kütlələrinin etirazları getdikcə artırdı. Ordu sıralarında narazılıq isə güclənməkdə davam edirdi (9, 472, 477; 7, 161).

1917-ci ilin fevralında çar hakimiyyətdən uzaqlaşdırıldı. Yeni yaradılmış Müvəqqəti hökumət də kəndli ölkələri olan Şərqi Slavyan ölkələrində əsrlərdən bəri həllini gözləyən torpaq məsələsinə aydınlıq gətirə bilmədi.

## ƏDƏBİYYAT

1. Аврех А.Я. Столыпин и третья Дума. М.: Наука, 1968, 518 с.
2. Azərbaycan tarixi. V c. Bakı: Elm, 2001, 629 s.
3. Анфимов А.М. Российская деревня в годы первой мировой войны. М.: Наука, 1962, 381 с.
4. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm,

1987, 256 s.
5. Дубровский С.М. Сельское хозяйство и крестьянство России в период империализма. М.: Наука, 1975, 398 с.
6. История СССР. В 12-ти т. Т. VI. М.: Наука, 1968, 854 с.
7. Китанина Т.М. Хлебная торговля России в 1875-1914 гг. М.: Наука, 1978, 286 с.
8. Рашин А.Т. Формирование рабочего класса России. М.: Наука, 1958, 622 с.
9. Сидоров А.Л. Экономическое положение России в годы первой мировой войны. М.: Наука, 1973, 656 с.
10. Струмилин С.Т. Статистика и экономика. М.: Наука, 1979, 490 с.
11. Хромов П.А. Экономическое развитие России в Х1Х-ХХ веках. М.: Госполитиздат, 1950, 551 с.

## ИЗ ИСТОРИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ВОСТОЧНОСЛАВЯНСКИХ СТРАНАХ В НАЧАЛЕ ХХ ВЕКА

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

Вопрос неплохо изучен в русской историографии. Но в азербайджанской историографии это первая попытка в этом аспекте. В статье в основном затронуты вопросы связанные с земледелием и скотоводством. Особенно отмечено, что эти страны занимали первое место в Европе по экспорту хлеба в изучаемый период.

## THE DEVELOPMENT HISTORY OF AGRICULTURE IN THE COUNTRIES OF EASTERN SLAV AT THE BEGINNING OF THE XX CENTURY

**T.T.VALIYEV**

**SUMMARY**

The problem has been enough learned in the Russian literature. However, it is the first attempt in this aspect in the Azerbaijan literature. Countries of eastern Slav stood back from developed countries. The basic factor of this was serfdom. The article elucidates problems of tillage and cattle-breeding in eastern slav countries. These countries were the first for the grain export in the investigated period.